# Cənub bölgəsinə səyahət edən məktəblilərin sevinci hədsizdir

"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində Lənkəran-Lerik-Astara marşrutu üzrə yola düşən Göygöl məktəbliləri hədsiz sevinc içərisində idi. Əllərində üçrəngli Azərbaycan bayrağı tutmuş şagirdlər onlar üçün yaradılan bu imkana görə dövlət başçısına minnətdarlıq edirdilər.

Tur-aksiya iştirakçısı, Göygöl şəhər 1 nömrəli orta məktəbin XI sinif şagirdi Nəriman Zülfüqarov sevincini AZƏRTAC-ın müxbiri ilə bölüşərək dedi: "Ölkəmizin tarixinin, mədəni irsinin daha dərindən öyrənilməsi məqsədilə həyata



keçirilən layihədə iştirak etdiyimə görə çox şadam. Azərbaycanın tarixi məkanları ilə tanışlıq çoxdankı arzum idi. İndi ölkəmizin dilbər guşələrindən olan cənub bölgəsinə yola düşürük. Oradakı gözəllikləri indiyədək televiziya vasitəsilə seyr edirdiksə, indi öz gözümüzlə görəcəyik. Buna görə Prezidentimizə ürəkdən minnətdarıq".

Sonra Heydər Əliyev Mərkəzinin qarşısında xatirə şəkli çəkdirən tur-aksiya iştirakçıları xüsusi avtobuslara əyləşərək respublikamızın cənub bölgəsinə yola düşdülər.